**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# HAKİMİYYƏT NÜMAYƏNDƏSİNƏ QARŞI MÜQAVİMƏT GÖSTƏRMƏ VƏ YA ZOR TƏTBİQ ETMƏ ƏMƏLLƏRİ İLƏ MÜBARİZƏNİN CİNAYƏT-HÜQUQİ VƏ KRİMİNOLOJİ PROBLEMLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5611.01 – Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ |
| Elm sahəsi: | Hüquq |
| **İddiaçı:** | **Yunis Dilqəm oğlu İsmayılov** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI -2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Cinayət hüququ və kriminologiya" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Hüquq elmləri doktoru, professor
**Firudin Yusif oğlu Səməndərov**

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, professor
**Habil Surxay oğlu Qurbanov**

Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Rəşad Məmməd oğlu Şərifov**

Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Nərmin Nazim qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:

Hüquq elmləri doktoru, professor
**Ayxan Xankişi oğlu Rüstəmzadə**

Dissertasiya şurasının elmi katibi:

Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Sahil Zahir oğlu Hüseynov**

Elmi seminarın sədri:

Hüquq elmləri doktoru
**Fərdin Yaşar oğlu Xəlilov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Xalqımızın ümummilli lideri Heydər Əliyevin bilavasitə rəhbərliyi altında işlənib hazırlanmış və 1995-ci il noyabrın 12-də keçirilmiş referendumda qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinə əsasən respublikamızda dövlət hakimiyyəti hakimiyyətin bölünməsi prinsipi əsasında təşkil edilmişdir. Öz səlahiyyətləri çərçivəsində müstəqil olan qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı surətdə fəaliyyət göstərir. Dövlət və cəmiyyət qarşısında duran vəzifələrin həllində, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsində dövlət hakimiyyət orqanları müstəsna rola malikdir. Vətəndaşlarla müqayisədə üstün səlahiyyət və imtiyazlara malik olan dövlət hakimiyyət və idarəetmə orqanları nümayəndələrinin qarşısında eyni zamanda vəzifələrinin icrası ilə bağlı yüksək tələblər də qoyulmuşdur. Dövlətin ən mühüm vəzifələrindən biri olan cəmiyyətdə sabitliyin təmin edilməsi xeyli dərəcədə bu orqanların nümayəndələrinin səmərəli fəaliyyətindən asılıdır. İstənilən cəmiyyət xüsusi funksiyalar yerinə yetirən idarəetmə aparatı olmadan mövcud ola bilməz. Dövlət tərəfindən ölkədə ictimai-siyasi sabitliyin, qanunçuluğun təmin edilməsi və s. mühüm vəzifələrin həlli məqsədilə idarəetmə orqanlarına müəyyən səlahiyyətlər verilir, onlar üçün hüquqi, təşkilati, maddi-texniki təminat tədbirləri sistemi yaradılır. İdarəetmə orqanlarının normal fəaliyyəti həmçinin hüquqi təminatın səviyyəsindən asılıdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Məcəllə) "İdarəetmə qaydaları əleyhinə olan cinayətlər" adlı 34-cü fəslində təsbit olunmuş normalar bu mənada idarəetmə orqanlarının fəaliyyətinin cinayət-hüquqi təminatı qismində çıxış edir.

Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlinə görə cinayət məsuliyyəti Məcəllənin 315-ci maddəsində müəyyən edilmişdir. Həmin maddə 34-cü fəsildə özünə ilk sırada yer almışdır. Bu fəslə daxil olan cinayətlərin obyekti qismində dövlət hakimiyyət və idarəetmə orqanlarının normal fəaliyyətinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlər çıxış

edir. Eyni zamanda tədqiq edilən əməlin tərkibinə daxil edilən bəzi hərəkətlərə görə məsuliyyət Məcəllənin digər maddələrində (126.2.2, 127.2.1, 169.1, 169.2, 220.1, 220.2, 221.2.2, 288, 206.3.4, 317, 329, 330) də qismən öz əksini tapmışdır. Qeyd etməliyik ki, Məcəllənin 315-ci maddəsinin 2015 və 2020-ci illərdə yeni redaksiyada verilməsinə baxmayaraq hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinə görə məsuliyyət məsələlərindəki qanunverici yeniliklər elmi cəhətdən xüsusi tədqiqat obyekti olmamışdır.

İdarəetmə qaydası əleyhinə edilən cinayətlər, o cümlədən hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri dövlətin nüfuzuna ciddi xələl gətirir, idarəetmə orqanlarının normal fəaliyyətini pozur, onların işinə mane olur, idarəetmə münasibətlərini zəiflədir. Bu cür cinayətin sosial təhlükəliliyi ondan ibarətdir ki, hakimiyyət nümayəndəsinə zor tətbiq edilməsi həmin şəxslərin normal xidməti fəaliyyətini pozur, öz təhlükəsizliyinə qeyri-müəyyənlik mühiti yaradır. Şəxsiyyətin həyatı və sağlamlığı hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinin əlavə obyekti kimi çıxış edə bilir. Cinayətdən zərərçəkmiş şəxslər qismində isə hakimiyyət nümayəndələri və ya onların yaxın qohumları çıxış edir. Ümumiyyətlə, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri ölkədə mənəvi-psixoloji iqlimi pozur, insanların qanunlara inamını qırır, cəmiyyət həyatında sosial gərginliyi artırır. Odur ki, dissertasiya mövzusunun aktuallığı, ilk öncə, tədqiq edilən cinayətin qəsd obyektinin mühümlüyü ilə şərtlənir.

Cinayət hüququnda zorakılıq həm müstəqil kateqoriya, həm də ayrı-ayrı cinayət tərkiblərinin əlaməti qismində nəzərdən keçirilir. Bu baxımdan hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri zorakı cinayətlər qrupuna aid edilir. Müasir dünyada cinayətkarlığı səciyyələndirən əsas əlamətlərdən biri isə onun zorakı formalarının dinamikasında artım tempinin müşahidə olunmasıdır. Respublikamızda 2004-2022-ci illərdə cinayət törətməsi müəyyən olunmuş şəxslərin sayı 16030 nəfərdən 36494 nəfərə, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 193-dən 361-ə,

dövlət hakimiyyəti əleyhinə olan cinayətlərin sayə isə 957-dən 1443-ə çatmışdır. 2023-cü ildə isə cinayət törətməsi müəyyən olunmuş şəxslərin sayı 36811 nəfərə çataraq 2022-ci ilə nisbətən 317 nəfər artmışdır. Bu səbəbdən mövzunun aktuallığı həm də bəhs edilən cinayətlərin kriminoloji vəziyyəti ilə müəyyən edilir.

Tədqiq olunan problemi aktuallaşdıran səbəblərdən biri də cinayətkarlıqla mübarizə sahəsində vahid hüquqi məkanın yaradılmasının zəruriliyi ilə bağlıdır. Xarici ölkələrin cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və zor tətbiq etmə ilə bağlı normaların bir-birinə uyğunlaşdırılması ilə bağlı məqamların tədqiqi bu mənada həm elmi, həm də praktik cəhətdən çox əhəmiyyətlidir.

Dissertasiya mövzusunun aktuallığı həm də hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməllərinin tövsifi zamanı yaranan çətinliklərlə bağlıdır. Bu mənada, Məcəllənin daim təkmilləşdirilməsinin böyük əhəmiyyəti vardır. Belə ki, hər hansı bir cinayətin tövsifində yol verilən səhv ədalətsiz və qanunsuz qərarın qəbul edilməsinə gətirib çıxarır. Bu mövzuda elmi tədqiqatların sayının az olması da həmin səhvləri şərtləndirən amillərdəndir. Belə bir vəziyyətdə hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri ilə cinayət-hüquqi mübarizənin gücləndirilməsi, bu cinayətlərlə bağlı problemlərin elmi cəhətdən tədqiq edilməsi, cinayət qanunvericiliyinin müvafiq normalarında yol verilmiş qüsurların aradan qaldırılması və təkmilləşdirilməsi üzrə təkliflərin verilməsi, həmin normaların praktikada tətbiqi təcrübəsinin yaxşılaşdırılması, habelə göstərilən cinayətlərin profilaktikası və qarşısının alınması üzrə tövsiyələrin işlənib hazırlanması mühüm əhəmiyyətə malikdir.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri hüquqi şüurun inkişaf etdirilməsi zərurəti ilə bağlıdır. Hakimiyyət nümayəndəsinə müqavimət göstərmə və zor tətbiq etmə əməlləri ictimai asayişin qorunması zamanı və ya digər hallarda fərdi və ya ümumi müqavimət formasında meydana çıxdığından, müqavimət göstərən şəxslərə qanunun tələblərinə tabe olmağın cəmiyyət üçün nə dərəcədə əhəmiyyətli olduğunu dərk etməyi aşılamaq zərurətə çevrilir. Bu sahədə qanunvericiliyin daim təkmilləşdirilməsinə

ehtiyac vardır. Burada əsas məqsəd ictimai asayişin daha etibarlı şəkildə qorunması, qanunauyğun və dinc toplantıların keçirilməsi təcrübəsinin formalaşdırılması, hüquqi tənzimlənmənin dəqiqləşdirilməsi, əməlin ictimai təhlükəsizlik dərəcəsinə uyğun cəzanın tətbiq edilməsi, qanunsuz əməllərdən çəkindirmək, qanunvericiliyimizin dünya standartlarına uyğunlaşdırılması, bununla yanaşı bu sferada ictimai münasibətlərin daha mükəmməl tənzimlənməsini təmin etməkdir.

Qeyd edilənlər dissertasiya mövzusunun aktuallığını müəyyənləşdirir, onun tədqiqat obyekti kimi seçilib, kompleks şəkildə araşdırılmasını zəruri edir.

**Tədqiqat mövzusunun işlənmə dərəcəsi.** Postsovet respublikaları içərisində idarəetmə qaydası əleyhinə olan cinayətlər, o cümlədən hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemləri Rusiyanın kriminalist alimləri tərəfindən daha çox tədqiq edildiyini qeyd etmək lazımdır. Cinayət hüququ nəzəriyyəsində tədqiq olunan mövzuya dair Rusiya Federasiyasında A.Y.Kizilovun, K.V.Tretyakovun, R.T.Həmidovun, I.E.Suleymanovanın namizədlik, N.K.Rudnıyın doktorluq dissertasiyalarını, A.P.Kuznetsovun, E.A.Lobanovanın, L.D.Qauxmanın monoqrafiya, kitab və məqalələrini göstərə bilərik. Rusiyanın kriminalist alimlərindən Y.İ.Qlinski, V.O.Kasimov, A.A.Kvık, N.D.Ratnikova, A.V.Ratnikov və V.İ.Pinçukun tədqiqatları da mövzunu öyrənmək baxımından çox əhəmiyyətlidir[1].

---

[1] Кизилов, А.Ю. Уголовно-правовое обеспечение управленческой деятельности представителей власти: / Дис. канд. юр. наук. / - Ульяновск, - 2002. - 204 с.; Третьяков К.В. Уголовная ответственность за насилие в отношении представителя власти / Автореф. дисс. канд. юр. наук. / - Самара, 2009. - 24 с. https://www.dissercat.com/content/ugolovnaya-otvetstvennost-za-nasilie-v-otnoshenii-predstavitelya-vlasti; Гамидов, Р.Т. Применение насилия в отношении представителя власти: уголовно-правовое и криминологическое исследование (на примере Республики Дагестан): / автореф. дисс. канд. юр. наук. / - Москва, 2010. - 30 с.; Сулейманова, И.Е. Насильственные преступления против представителей власти в сфере порядка управления: уголовно-правовое и криминологическое исследование / Автореф. дисс. канд. юр. наук. / - Уфа, 2015. - 30 с.; Рудный, Н.К. Преступления против порядка

Azərbaycanda hakimiyyət nümayəndəsinə müqavimət göstərmə və zor tətbiq etmə cinayəti xüsusi tədqiqat predmeti olmamış, yalnız bu cinayətlərlə bağlı problemin bəzi aspektləri T.M.Qafarov, F.Y.Səməndərov, R.İ.Quliyev, H.S.Qurbanov, İ.B.Ağayev, Ş.T.Səmədova, N.K.Əliyev, N.T.Əliyev və başqaları tərəfindən cinayət hüququ üzrə dərslik, dərs vəsaiti və ya kommentariyalar çərçivəsində nəzərdən keçirilmişdir[2].

---

управления, посягающие на служебную деятельность и личность представителей власти: сравнительный анализ законодательства России и стран: / Дис. докт. юр. наук. / - Москва, 2009. - 325 с.; Кузнецов А.П. Преступления против порядка управления: юридическая характеристика проблемы классификации, - 2017. https://cyberleninka.ru-article-p..; Лобанова Л.А. Порядок управления как объект уголовно-правовой охраны и классификация преступлений на него посягающих, - 2012. https://cyberleninka.ru-article-p...; Глинский, Я.И. Криминология постмодерна (неокриминология) / Я.И.Гилинский. - СПб: Алетейя, - 2021, - 136 с.; Касимов, В.О. Возраст преступника как криминологическая проблема: / Дисс. канд. юрид. наук. / - Саратов, 2018. - 231 с.; Квык А.А. Преступления против порядка регистрационного учета в уголовном кодексе России, - 2015. https://cyberleninka.ru-article-p...; Ратникова Н.Д., Ратников А.В. К вопросу об установление круга потерпевщих при посягательстве на жизнь сотрудника правоохранительного органа, - 2018. https://cyberleninka.ru-article-к...; Пинчук В.И. Сопротивление представителю общественности, выполняющему обязанности по охране общественного порядка. Санкт-Петербург, - 1995. - 20 с.;

[2] Qafarov T.M. Cinayət və cinayət məsuliyyəti. Bakı, Azərnəşr, - 1978. - 168 s.; Səməndərov, F.Y. Cinayət hüququ: Ümumi hissə. Dərslik, yenidən işlənmiş təkrar nəşr / F.Y.Səməndərov. – Bakı, "Hüquq yayın evi" nəşriyyatı, Digesta, - 2018. - 724 s.; Səməndərov, F.Y. Cinayət hüququnda cəza problemi: tarix və müasirlik. Dərs vəsaiti / F.Y.Səməndərov. - Bakı: "Bakı Universiteti" nəşriyyatı, - 2009. - 286 s.; Səməndərov, F.Y. Kriminologiya: Ali məktəblər üçün dərs vəsaiti / F.Y.Səməndərov. - Bakı: "Digesta" nəşriyyatı, 2012. – 240 s.; Quliyev, R.İ., İmanov, M.N. Cinayət hüququ: Xüsusi hissə / R.İ.Quliyev, M.N.İmanlı. - Bakı: Qanun, - 2004. - 816 s.; Qurbanov H.S. Cəmiyyət və sosial-hüquqi problemlər. Bakı, "Elm" nəşriyyatı, - 2018. - 272 s.; Ağayev, İ.B. Cinayət hüququ: Xüsusi hissə / İ.B.Ağayev. - Bakı: Nurlar, - 2018. - 488 s.; Ağayev İ.B. Cinayət tərkibi: Dərs vəsaiti / İ.B.Ağayev. Bakı: Təhsil, - 2005. - 496 s.; Səmədova Ş.T. Cinayətin kateqoriyaları. Dərs vəsaiti. Bakı, "Adiloğlu" nəşriyyatı, 2007. 304 s.; Əliyev N.K. Qəsdən adam öldürmə cinayətlərində iştirakçılığın növlərinə görə cəza təyini məsələləri. Bakı Universitetinin xəbərləri, - 2013, №3, - s.48-59.; Əliyev N.K. İştirakçılıq ilə törədilən qəsdən adam öldürmə cinayətlərinə görə məsuliyyət (monoqrafiya). Bakı, - 2019, - 476 s.; Əliyev N.T. Azərbaycan Respublikasında

Beləliklə, ölkəmizdə idarəetmə qaydası əleyhinə olan cinayətlər, o cümlədən hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemləri kompleks və monoqrafik səviyyədə tədqiq edilməmişdir. Müdafiəyə təqdim edilən dissertasiya işi hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemlərinin kompleks və monoqrafik tədqiqi istiqamətində ilk təşəbbüsdür.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini dövlət hakimiyyəti orqanlarının normal fəaliyyətinin cinayət-hüquqi təminatı, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemləri, qeyd olunan ictimai təhlükəli qəsdlərdən qorunması sahəsində yaranan ictimai münasibətlər təşkil edir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini Azərbaycan Respublikasının və bəzi xarici ölkələrin cinayət qanunvericiliyinin hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməllərinə görə məsuliyyət nəzərdə tutan hüquq normaları, qeyd olunan cinayətlərin vəziyyəti və dinamikasına dair statistik göstəricilər, müvafiq cinayət-hüquqi normaların tədqiqi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi cinayət hüququnda hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemlərinin nəzəri və təcrübi cəhətlərinin tədqiq edilməsi, Azərbaycan Respublikasının cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlinə görə məsuliyyət müəyyən edən normanın təkmilləşdirilməsi, bu növ cinayətlərin tövsifi sahəsində yaranan ziddiyyətlərin aradan qaldırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflərin verilməsi, habelə bu cinayətlərin

---

regional cinayətkarlığın tədqiqi, proqnozlaşdırılması və qarşısının alınması problemləri: / Hüquq üzrə elmlər doktoru dis. avtoreferatı. / - Bakı, 2017. - 60 s.

profilaktikası və qarşısının alınması üzrə tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

Göstərilən məqsədə nail olmaq üçün tədqiqatın qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməllərinə görə məsuliyyətin həlli ilə bağlı Azərbaycanın cinayət qanunvericiliyinin tarixi inkişafda nəzərdən keçirilməsi;
- hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayət tərkibinin hüquqi təhlilinin aparılması;
- hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etməyə görə məsuliyyət nəzərdə tutan normaların məhkəmə-istintaq təcrübəsində tətbiqi vəziyyətinin öyrənilməsi;
- hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməllərinin oxşar cinayət tərkiblərindən fərqləndirilməsi;
- xarici ölkələrin cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etməyə görə məsuliyyətin tənzimlənməsi vəziyyətinin nəzərdən keçirilməsi;
- hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinin kriminoloji problemərinin araşdırılması, bu növ cinayətlərin profilaktikası və qarşısının alınması üzrə tövsiyələrin işlənib hazırlanması;
- hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etməyə görə məsuliyyət nəzərdə tutan normaların təkmilləşdirilməsi üzrə təkliflərin verilməsi.

**Tədqiqat metodları.** Tədqiqat işində ümumnəzəri-elmi (analiz və sintez, abstraktlaşdırma, sistemli-struktur, mücərrəddən konkretə doğru) və xüsusi-empirik (konkret-tarixi, müqayisəli, məntiqi, formal-hüquqi, statistik, sistemli yanaşma, təsnifləşdirmə) metodlarindan istifadə edilmişdir.

**Tədqiqat işinin nəzəri əsası.** Tədqiqat işinin nəzəri əsası olaraq idarəetmə qaydası əleyhinə edilən, o cümlədən hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətlərinin tədqiqinə həsr edilmiş hüquq ədəbiyyatları öyrənilmişdir. Dissertasiya işinin ərsəyə gəlməsində görkəmli hüquqşünas

alimlər olan M.D.Şarqorodski, N.A.Belyayev, A.Q.Kolomen, N.F.Kuznetsova, A.Q.Kibalnik, A.V.Naumov, İ.M.Rəhimov, F.Y.Səməndərov, Ş.T.Səmədova, B.S.Zahidov, M.B.Əhmədov, K.H.Səlimov, Ç.F.Mustafayev, H.S.Qurbanov, N.K.Əliyev, N.T.Əliyev və başqalarının əsərləri olduqca faydalı olmuşdur[3].

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. Azərbaycanın həm Rusiya İmperiyasının tərkibində olduğu, həm Xalq Cümhuriyyəti dövrünün, həm də sovet dövrünün cinayət qanunvericiliyində dövlət orqanlarının səlahiyyətli şəxsləri yüksək cinayət-hüquqi mühafizənin obyekti olmuş, onlara qarşı edilən qəsdlərə görə məsuliyyət müəyyən edən cinayət-hüquqi normalar sabitliyi ilə fərqlənmişdir.

2. Azərbaycan Respublikasının cinayət qanunvericiliyi tarixində (1922, 1927, 1960, 1999) hakimiyyət nümayəndəsinə qarşı

---

[3] Шаргородский М.Д. Избранные труды. СПб.: югид. Центр Пресс, 2004.-655 с.; Беляев Н.А., Орехов В.В., Прохоров В.С. Уголовное право на совренном этапе: проблемы преступления и наказания. СПб: Изд-во С.-Петерб. ун-та, 1992. 604 с.; Коломен А.Г. К вопросу об объективной стороне посягательства на жизнь сотрудника правоохранительного органа, - 2016. https://cyberleninka.ru-article-к...; Кузнецова Н.Ф. Проблемы квалификации преступлений. М.2007, 336 с.; . Кибальник А.Г. Сложности в понимании преступлений против порядка управления, - 2015. https://cyberleninka.ru-article-s...; Наумов, А.В. Уголовный кодекс Российской Федерации: пять лет спустя. Проблемы и перспективы совершенствования уголовного закона // - Москва: Российская юстиция, Юридическая литература, - 2002. - № 6, - с. 46-49. ; Наумов, А.В. Российское уголовное право. Общая часть: Курс лекций / А.В.Наумов. - Москва: БЕК, - 1996, - 560 с.; Рагимов, И.М. Бессмертная смертная казнь / И.М.Рагимов. - Санкт-Петербург: Издательство Юридический центр, - 2017. - 192 с.; Самедова, Ш.Т. Проблемы уголовного права квалификация преступлений, дифференциации уголовной ответственности к построению санкций. Монография. Баку, «Экопринт», 2017. 744 с.; Əhmədov M.B., Məmmədli İ.F. Cinayət hüququ. Dərs vəsaiti. B, - 2007, - 312 s.; Səlimov K.H. Kriminalistika. Dərslik. Bakı, Qanun, - 2010. - 750 s.; Əliyev N.K. İştirakçılıq ilə törədilən qəsdən adam öldürmə cinayətlərinə görə məsuliyyət (monoqrafiya). Bakı, - 2019, - 476 s.; Əliyev N.T. Azərbaycan Respublikasinda regional cinayətkarliğin tədqiqi, proqnozlaşdırılması və qarşısının alınması problemləri: / Hüquq üzrə elmlər doktoru dis. avtoreferatı. / - Bakı, 2017. - 60 s.

müqavimət göstərmə və ya zor tətbiq etmə əməlinə görə cinayət məsuliyyətini müəyyən edən normaların daha dolğun məzmunu Azərbaycan SSR 1960-cı il Cinayət Məcəlləsində təsbit olunmuşdur. Belə ki, həmin cinayət qanununda müxtəlif anlayışlardan istifadə edilmişdir: "hakimiyyət nümayəndəsi", "ictimaiyyətin nümayəndəsi", "milis işçisi", "xalq drujinaçısı", "vəzifəli şəxs" və "ictimai qaydanı qoruyan ictimaiyyətin nümayəndəsi". Bu şəxslərə qarşı edilən zorakı hərəkətlərə görə məsuliyyət ayrı-ayrı maddələrdə və bir-birindən fərqli tərkiblərdə müəyyən olunmuşdur.

3. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayəti iki obyektli cinayətdir. Cinayətin əsas bilavasitə obyektini hakimiyyət nümayəndələrinin normal idarəetmə fəaliyyətini təmin edən ictimai münasibətlər, əlavə bilavasitə obyektini isə hakimiyyət nümayəndəsinin və onun yaxın qohumlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlər təşkil edir.

4. Məcəllədə hakimiyyət nümayəndəsinin anlayışı verilməmişdir, bu da hüquqtətbiqetmə fəaliyyətində, cinayətin tövsifi prosesində müəyyən çətinliklər yaradır. Bu sahədə vahid təcrübənin yaradılması məqsədi ilə Məcəllənin 315-ci maddəsinə qeyd şəklində hakimiyyət nümayəndəsinin aşağıdakı məzmunda anlayışının daxil edilməsini təklif edirik: "Bu maddədə və Məcəllənin başqa maddələrində hakimiyyət nümayəndəsi dedikdə, qanunvericilik, icra və məhkəmə hakimiyyətini həyata keçirən şəxslər, habelə dövlət və ya nəzarət orqanlarının yaxud yerli özünüidarə orqanlarının, onların tabeçiliyində olmayan vətəndaşlar və təşkilatlar üçün məcburi olan qanunla müəyyən edilmiş qaydada sərəncamverici səlahiyyətlər verilmiş şəxsləri başa düşülür.".

5. Məcəllənin 315-ci maddəsində təsbit olunan tərkibin obyektiv cəhətinə iki alternativ hərəkətlər daxildir: 1) hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən zor tətbiq etməklə müqavimət göstərmə; 2) xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı zor tətbiq etmə. Maddənin adlandırılmasında ("Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə") göstərilən hərəkətlərin birincisi qismən, ikincisi isə tam vurğulanır.

Nəzərə alaraq ki, hər iki hərəkət zorakı xarakterlidir, təklif edirik ki, bu maddənin adından "müqavimət göstərmə və ya" sözləri çıxarılsın və həmin maddənin adı daha lakonik "Hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq etmə" kimi adlandırılsın.

6. Hakimiyyət nümayəndəsinə qarşı fərdi və ümumi müqavimət göstərmə, adətən, kütləvi iğtişaşlar, qanunsuz toplantılar, mitinqlər, piketlər zamanı daha bariz surətdə özünü biruzə verir. "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda və Məcəllədə mütəmadi olaraq edilən dəyişikliklər onların daim təkmilləşdirilməsi zərurətindən irəli gəlir və bu işin davam etdirilməsi labüddür. Qanun pozuntuları ilə cinayət-hüquqi mübarizənin effektliyini artırmaq üçün çəkindirici tədbirləri sərtləşdirmək getdikcə zərurətə çevrilir. Bu sahədə cinayət-hüquqi mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Məcəllənin 169.1 və 169.2-ci maddələrində nəzərdə tutulmuş sanksiyanın sərtləşdirilməsini təklif edirik:

"Maddə 169. Toplantıları keçirmə qaydasını pozma

169.1. Qanunvericiliklə qadağan olunmuş hallarda toplantılar təşkil etmə, keçirmə və ya belə toplantılarda iştirak etmə vətəndaşların hüquq və qanuni mənafelərinin əhəmiyyətli pozulmasına səbəb olduqda -

səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

169.2. Toplantıların keçirilməsi zamanı toplantıda iştirak edənlər tərəfindən odlu və ya soyuq silah, yaxud partlayıcı maddə və qurğular, eləcə də ətrafdakıların həyat və sağlamlığı üçün təhlükə törədən sair maddə və əşyaları gəzdirmə -

on min manatdan on beş min manatadək miqdarda cərimə və ya beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

7. Məcəllənin ilkin redaksiyasına münasibətdə 315-ci maddənin normativ məzmunu 2015 və 2020-ci illərdə ciddi şəkildə dəyişdirilmiş və bu dəyişikliklərin nəticəsində:

- 315.1-ci maddədə təsbit olunan əsas tərkibdə hakimiyyət nümayəndəsinə qarşı törədilən psixiki zorakılıq (zor tətbiq etmə

hədəsi ilə hədələmə) dekriminallaşdırılmış (Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1396-IVQD nömrəli Qanunu);

- 315.1-ci maddədə təsbit olunan əsas tərkibdə tətbiq edilən zorakı hərəkətlərin xarakterini müəyyən edən "həyat və sağlamlıq üçün təhlükəli olmayan" cümləsi ləğv edilmiş (Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1396-IVQD nömrəli Qanunu);

- 315.2-ci maddə ləğv edilmiş və bununla qanunverici bu cinayətə görə cinayət məsuliyyətinin diferensiasiyasından imtina etmişdir (Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanunu).

Beləliklə, əvvəlki redaksiyadan fərqli olaraq, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinə görə məsuliyyət və cəza məsələləri xeyli yüngülləşdirilmiş, cəzanın fərdiləşdirilməsi prinsipi cinayət məsuliyyətinin diferensiasiya prinsipinə münasibətdə üstünlük təşkil etmişdir.

8. Hesab edirik ki, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinə görə məsuliyyət daha yüksək səviyyədə diferensiallaşmalı və aşağıdakı ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı tərkibləri müəyyən edən maddələrin 315-ci maddəyə əlavə edilməsini təklif edirik:

"315.2. Eyni əməllər:

315.2.1. bir qrup şəxs və ya qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

315.2.2. təkrar törədildikdə —

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

315.3. Bu Məcəllənin 315.1 və 315.2-ci maddələri ilə nəzərdə tutulmuş əməllər silah və ya silah qismində istifadə edilən əşyalar tətbiq edilməklə törədildikdə —

yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

9. Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin cinayət qanunvericiliyində tədqiq edilən normalar öz əksini tapmışdır.

Postsovet respublikaların cinayət məcəllələri xeyli dərəcədə bir-birinə oxşardır. Eyni dərəcədə bütün bunlar idarəetmə qaydası əleyhinə edilən cinayətlərlə bağlı normalara, araşdırdığımız normaya aiddir. Bununla belə, müəyyən fərqli cəhətlər də vardır. Məsələn, Ukrayna Cinayət Məcəlləsinə əsasən, sözügedən cinayətin subyekti cinayəti törədənədək 14 yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Amma Postsovet respublikaların əksəriyyətində bu cinayətin subyekti 16-dır.

10. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlini törətmiş cinayətkarın şəxsiyyətinin kriminoloji tipologiyasını həmin şəxsiyyətin fərqləndirici xüsusiyyətlərinin ifadəsi olan xarakteri, davranışı ilə bağlı olan əlamətlərinin məcmusu təşkil edir. Tədqiqat nəticəsində (araşdırdığımız cinayət işləri üzrə) məlum olmuşdur ki:

- Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayəti törətmiş şəxslərin böyük əksəriyyətini kişilər təşkil edir;

- Şəxsiyyəti səciyyələndirən sosial-demoqrafik göstəricilər arasında təhsil səviyyəsi mühüm ünsürlərdən biridir. Bu cinayətlərə görə məsuliyyətə cəlb edilərək məhkum edilmiş şəxslərin böyük əksəriyyətinin təhsil səviyyəsi yüksək deyildir;

- Şəxsiyyətin formalaşmasında əhəmiyyətli yerlərdən birini ailə vəziyyəti, ailə tərbiyəsi tutur. İnsanın necə böyüməsi, hansı sosial simaya malik olması əsasən ailədən asılıdır. Öyrəndiyimiz cinayəti törətmiş cinayətkarların ailə vəziyyəti ilə bağlı aşkar edilmişdir ki, bu cinayəti törədənlərin əksəriyyəti ailəlidir;

- Tədqiq edilən cinayəti törətmiş şəxslərin yaş tərkibinin öyrənilməsi də nəzəri və təcrübi cəhətdən əhəmiyyətli və maraq doğuran məsələlərdəndir. Yaş xüsusiyyəti cinayətkarın şəxsiyyətinin sosial-demoqrafik və kriminoloji xarakteristikasının mühüm ünsürlərindən biridir. Yaşdan asılı olaraq münaqişəli vəziyyətlərdə şəxsiyyətin davranışı, tələbat və maraqlar sistemi, onları təmin etmə yolları və vasitələri dəyişir. Haqqında bəhs etdiyimiz cinayəti törətmiş kontingentin xüsusi çəkisi ən böyük olan yaş qrupu 25-39 yaşında olanlardır;

- Baxdığımız kateqoriya cinayətkarların şəxsiyyətini səciyyələndirən mühüm əlamətlərdən biri də əvvəl törədilmiş cinayətə görə məhkumluğun olmasıdır. Bu əlamətin əhəmiyyəti həm cinayət-hüquqi cəhətdən, həm də kriminoloji cəhətdən yüksəkdir. Araşdırdığımız cinayəti törətmiş şəxslərin əksəriyyətinin birinci məhkumluğu olduğu aşkar edilmişdir;

- Sözügedən cinayəti törətmiş şəxslərin hansı cəzalara məhkum edilməsi də maraq doğuran məsələlərdəndir. Cinayət işlərini araşdırdığımız şəxslərin böyük hissəsi azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişlər;

- Araşdırdığımız cinayətlərin çoxu şəhərlərdə və gecə vaxtı törədilmiş, cinayətkarların əksəriyyəti ictimai təhlükəli əməl törədərkən işsiz olmuşdur.

11. Tədqiq edilən cinayətlərin ümumsosial profilaktikası çərçivəsində aşağıdakı tədbirlərin görülməsi zəruridir: ölkədə ictimai-siyasi vəziyyətin sabitliyində möhkəmliyin olması, işsizliyin azaldılması, dövlət büdcəsindən sosial sahəyə ayrılan xərclərin artırılması, kütləvi informasiya vasitələrində qanunçuluğun və onun tətbiqinin müsbət təcrübəsinin fəal təbliğ edilməsi, vətəndaşların hüquqi şüur səviyyəsinin yüksəldilməsi, hüquq qaydalarının təmin edilməsinə vətəndaşların geniş cəlb edilməsi, narkomaniya və alkoqolizmlə mübarizənin gücləndirilməsi, dövlət səviyyəsində hakimiyyət nümayəndələrinin nüfuzunun qorunmasına və yüksəldilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi problemin qoyuluşu ilə müəyyən olunur və aşağıdakı müddəalarda öz əksini tapır:

- tədqiqat Azərbaycanda hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə probleminin monoqrafik öyrənilməsinə ilk cəhddir;

- cinayət-hüquq nəzəriyyəsində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemləri nəzəri və təcrübi cəhətdən tədqiq edilmişdir;

- hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməllərinin oxşar cinayət tərkiblərindən

fərqləndirilməsi təsnifləşdirmə, modelləşdirmə və qruplaşdırma metodları əsasında analiz edilmişdir;

- xarici ölkələrin cinayət qanunvericiliyində problemin tənzimlənməsinin komparativistik (müqayisəli) təhlili verilmişdir;

- haqqında bəhs olunan cinayətin kriminoloji problemlərinin araşdırılması, bu növ cinayətlərin profilaktikası, qarşısının alınması üzrə tövsiyələr verilmişdir;

- Məcəllənin 315-ci maddəsinin adının dəyişdirələrək "Hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq etmə" kimi adlandırılması təklif olunmuşdur;

- Məcəllədə toplantıları keçirmə qaydasını pozma hallarını özündə ehtiva edən maddənin sanksiyasında dəyişiklik edilməsi haqqında təklif verilmişdir;

- hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etməyə görə məsuliyyət nəzərdə tutan normaların təkmilləşdirilməsi üzrə təkliflər verilmişdir;

- Dissertasiya işində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməllərinə görə məsuliyyət müəyyən edən hüquq normaları ilk dəfə kompleks şəkildə tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya işi ali məktəblərin hüquq fakültələrində cinayət hüququ kursunun tədrisi prosesi, mühazirə və seminar məşğələlərinin aparılması, müvafiq dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar və cinayət qanunvericiliyinin şərhlərinin yazılması üçün faydalı ola bilər.

Çıxarılan nəticələr cinayət qanunvericiliyinin hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətlərinə görə məsuliyyət müəyyən edən normaların və onların tətbiqi təcrübəsinin təkmilləşdirilməsi, habelə göstərilən cinayətlərin profilaktikası və qarşısının alınması üzrə tədbirlərin həyata keçirilməsi işinə kömək edəcəkdir.

Tədqiqatdan doğan və formulə edilən müddəalar idarəetmə qaydası əleyhinə olan cinayətlərin qarşısının uğurla alınmasına, qanunun ədalətli tətbiqinə, vətəndaşlarda ədalət hissinin formalaşmasına, qanunçuluq rejiminin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

**Tədqiqatın normativ əsasları.** Azərbaycan Respublikasının Konstitusiyasını, Cinayət-Prosessual Məcəlləsini, Cinayət Məcəlləsini, habelə bir sıra xarici dövlətlərin Cinayət Məcəllələrini tədqiqatın normativ aktı kimi qəbul etmək olar.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Müəllif dissertasiya işinin mövzusu ilə bağlı müxtəlif xarici və yerli ədəbiyyatlar üzərində tədqiqat aparmış, zəruri olan materialları toplamışdır. Dissertasiyanın əsas məzmununu əks etdirən müddəalar, tədqiqatın nəticələri və hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayət tərkibinə həsr edilmiş tezislər və məqalələr Azərbaycan Respublikasında AAK-ın tövsiyə etdiyi jurnal və məcmuələrdə, habelə beynəlxalq və Respublika konfranslarında oxunmuş məruzə və çıxışlarda öz əksini tapmışdır.

Dissertasiyada verilən təkliflərdən Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin təkmilləşdirilməsi, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməllərinə görə məsuliyyət müəyyən edən normaların məhkəmə-istintaq təcrübəsində tətbiqi, habelə göstərilən cinayətlərin profilaktikası və qarşısının alınması üzrə tədbirlərin həyata keçirilməsi prosesində istifadə edilə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Cinayət hüququ və kriminologiya" kafedrasında yerinə yetirilmiş və müzakirə olunaraq müdafiəyə təqdim edilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya girişdən, doqquz yarımfəsli əhatə edən dörd fəsildən, nəticədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna edilməklə boşluqsuz 262049 (iki yüz altmış iki min qırx doqquz işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Giriş** hissədə tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, onun elmi araşdırma dərəcəsi göstərilir, tədqiqatın məqsəd və vəzifələri, nəzəri əsasları müəyyən edilir, işin elmi yeniliyi qeyd olunur, müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır, nəzəri və

təcrübi əhəmiyyəti açıqlanır, həmçinin dissertasiyanın strukturu və onun nəticələrinin aprobasiyasına dair məlumat verilir.

Dissertasiya işinin **"Hakimiyyət nümayəndəsinə qarşı müqa-vimət göstərmə və ya zor tətbiq etmə ilə bağlı Azərbaycanın cinayət qanunvericiliyinin inkişaf tarixi"** adlanan **birinci fəsli** iki yarımfəsildən ibarərdir.

**"Azərbaycanın Çar Rusiyası və Xalq Cümhuriyyəti dövründəki qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayəti ilə bağlı normalar"** adlanan birinci yarımfəsildə qeyd edilir ki, müasir dövrümüzün sosial problemlərini və hadisələrini tarixi kontcksdən kənarda dərk etmək mümkün deyildir. Buna görə hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətləri ilə bağlı Azərbaycanın qanunvericiliyinə tarixi mövqedən yanaşıb, onun keçdiyi inkişaf yolunu nəzərdən keçirmək zəruridir.

Azərbaycanın həm Rusiya İmperiyasının tərkibində olduğu, həm də Xalq Cümhuriyyəti dövrünün cinayət qanunvericiliyində dövlət orqanlarının səlahiyyətli şəxsləri yüksək cinayət-hüquqi mühafizənin obyekti olmuş, onlara qarşı edilən qəsdlərə görə məsuliyyət müəyyən edən cinayət-hüquqi normalar sabitliyi ilə fərqlənmişdir. Bu, dövlətin idarəetmə fəaliyyətinə, onun səlahiyyətli subyektlərinə qarşı qəsdlərin yüksək ictimai-təhlükəliliyə malik olması, dövlət orqanlarının fəaliyyətinə ciddi ziyan vurması və nüfuzuna xələl gətirməsi ilə bağlı olmuşdur.

**"Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə ilə bağlı Azərbaycan SSR-in və müstəqil Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin inkişaf tarixi"** başlıqlı ikinci yarımfəsildə bildirilir ki, həm Çar, həm də Xalq Cümhuriyyəti dövrünün qanunvericiliyində olduğu kimi, Sovet dövrünün cinayət qanunvericiliyində də dövlət orqanlarının səlahiyyətli şəxsləri yüksək cinayət-hüquqi mühafizə obyekti olmuş, onlara qarşı edilən qəsdlərə görə məsuliyyət müəyyən edən cinayət-hüquqi normalar sabitliyi ilə fərqlənmişdir.

Müəllif göstərir ki, hazırda Azərbaycan cinayət hüququnun əsas mənbəyi 30 dekabr 1999-cu ildə qəbul olunmuş Məcəllədir. 1999-cu il Məcəlləsində hakimiyyət nümayəndəsinə qarşı müqavimət

göstərmə və ya zor tətbiq etməyə görə məsuliyyət müəyyən edən norma əvvəl qüvvədə olmuş cinayət qanunundan fərqli olaraq yalnız bir maddədə – 315-ci maddədə nəzərdə tutulmuşdur.

Dissertasiyanın **"Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayət tərkibinin hüquqi təhlili"** adlı **ikinci fəsli** üç yarımfəsildən ibarətdir.

**"Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayət tərkibinin obyekti və obyektiv cəhəti"** sərlövhəli birinci yarımfəsildə göstərilir ki, cinayətin obyekti üçün ictimai münasibətlər həlledici anlayışdır. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə ikiobyektli zorakılıq cinayətidir, onun tərkibinə konstruktiv element qismində zorakılıq hərəkəti daxil edilmişdir. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin əsas bilavasitə obyekti hakimiyyət nümayəndələrinin normal idarəetmə fəaliyyətini təmin edən ictimai münasibətlərdir. Tədqiq olunan cinayətin əlavə bilavasitə obyektini hakimiyyət nümayəndəsinin və onun yaxın qohumlarının sağlamlığı, cismani toxunulmazlığı, təhlükəsizliyini təmin edən ictimai münasibətlər təşkil edir.

Tədqiqatçı bildirir ki, Müstəqil Dövlətlər Birliyi ölkələrinin Model CM-in 310-cu maddəsində, habelə MDB üzvü olan ölkələrin bir çoxunun cinayət məcəllələrinin müvafiq maddələrinin qeydində hakimiyyət nümayəndəsinin anlayışı müəyyən edilmişdir. Bizdə də hakimiyyət nümayəndəsinin anlayışının müəyyən edilərək Məcəllənin 315-ci maddəsinə qeyd şəklində daxil edilməsini təklif edirik.

Eyni zamanda, qanunverici 315-ci maddənin formuləsində müəyyən qüsurlara yol vermişdir. Həmin maddənin "Hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq etmə" adlandırılması və cinayət məsuliyyətinin diferensiasiyasının səviyyəsinin artırılması ilə (ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı tərkibləri müvafiq olaraq 315.2 və 315.3 maddələrdə əlavə edilməsi ilə) yeni redaksiyada verilməsini məqsədəmüvafiq hesab edirik.

**"Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayət tərkibinin subyekti və subyektiv əlamətləri"** adlı ikinci yarımfəsildə göstərilir ki, hakimiyyət

nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin subyekti həmin əməli törətmiş və ona görə cinayət məsuliyyəti daşıma qabiliyyəti olan anlaqlı 16 yaşına çatmış şəxsdir.

Bütün ikiobyektli zorakılıq cinayətləri üçün subyektiv cəhət birbaşa qəsdlə səciyyələnir. Tərkibin obyektiv cəhətinə daxil olan ikinci hərəkətlər, yəni xidməti vəzifələrini yerinə yetirilməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına qarşı zor tətbiq etmənin əsas motivini hakimiyyət nümayəndəsinin qanuni fəaliyyətinə görə intiqam motivi təşkil edir.

Üçüncü yarımfəsil **"Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayət tərkibinin oxşar cinayət tərkibləri ilə fərqli cəhətləri"** adlanır. Burada qeyd olunur ki, cinayət tərkibləri bir-birindən onları təşkil edən əlamətlərinə görə fərqlənir. Bununla bərabər cinayət tərkibləri müəyyən ümumi əlamətlərə də malik olurlar. Nəticədə bəzi cinayətlər bir-birinə xeyli dərəcədə oxşayırlar ki, bu da təcrübədə həmin cinayətlərin tövsifi prosesində bəzi çətinliklərin meydana gəlməsinə səbəb olur. Qeyd olunur ki, cinayətlərin oxşar cinayət tərkiblərindən fərqləndirilməsi təkcə nəzəri deyil, həm də təcrübi əhəmiyyətə malikdir.

**"Xarici ölkələrin cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməllərinə görə məsuliyyətin tənzimlənməsi"** adlanan **üçüncü fəsil** iki yarımfəsildən ibarətdir.

**"Roman-german və Anqlo-sakson hüquq sisteminə daxil olan ölkələrin qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayəti ilə bağlı normalar"** sərlövhəli birinci yarımfəsildə müəllif göstərir ki, ayrı-ayrı xarici ölkələrin cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə ilə bağlı normaların bir-birinə uyğunlaşdırılması baxımından müəyyən məqamlar vardır. Hazırkı şəraitdə cinayətkarlıqla mübarizə sahəsində vahid hüquqi məkanın yaradılması olduqca zəruridir və bu, baxılan problemi daha da aktuallaşdırır.

Roman-german hüquq sisteminə daxil olan Türkiyə, Almaniya, Fransa, Yaponiya, Hollandiya, Polşa dövlətlərinin, Anqlo-sakson

hüquq sisteminə daxil olan ABŞ və Hindistanın, müsəlman hüquq sisteminə daxil olan İranın hüquq sistemini, o cümlədən, həmin dövlətlərin cinayət qanunvericiliyinin hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə haqqında normaları tədqiqata cəlb edilmişdir.

**"Postsovet respublikalarının cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməllərinə görə məsuliyyətin tənzimlənməsi"** adlı ikinci paraqrafda göstərilir ki, SSRİ-nin dağılması ilə yaranan postsovet respublikaları iki yerə bölünür: 1) Müstəqil Dövlətlər Birliyinin (MDB) üzvü olan ölkələr (Rusiya, Belarus, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Azərbaycan, Türkmənistan, Ermənistan, Moldova) və MDB-yə daxil olmayan ölkələr (Ukrayna, Latviya, Litva, Estoniya, Gürcüstan). Bütün postsovet respublikalarının, xüsusilə də MDB-yə üzv olan ölkələrin cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə ilə bağlı normalar öz əksini tapmışdır. Xüsusilə, MDB-nin üzvü olan ölkələrin cinayət məcəllələri xeyli dərəcədə bir-birinə oxşardır. Eyni dərəcədə bütün bunlar idarəetmə qaydası əleyhinə edilən cinayətlərlə bağlı normalara, o cümlədən hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə ilə bağlı normalara aiddir. Bununla belə, Postsovet respublikaları içərisində tədqiq olunan problemlə bağlı müəyyən fərqli cəhətlər də vardır.

**"Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinin kriminoloji tədqiqinin aktual problemləri və profilaktikası məsələləri"** adlanan **dördüncü** fəsil iki paraqrafdan ibarətdir.

**"Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinin kriminoloji tədqiqinin aktual problemləri"** sərlövhəli birinci paraqrafda qeyd edilir ki, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətlərinin vəziyyətinə və səviyyəsinə ümumi səciyyəli amillərlə yanaşı, ictimai münasibətlərin baxılan sahəsi üçün səciyyəvi olan xüsusi amillər də təsir göstərir. Belə amillərə aşağıdakılar daxildir: hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor

tətbiq etmə ilə bağlı kriminogen şəraitlə bağlı vəziyyət; hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə ilə bağlı cinayət-hüquqi normaların keyfiyyəti, onların vətəndaşların davranışına təsir etmə qabiliyyəti; cinayət-hüquqi qadağaların məzmunu barədə vətəndaşların məlumatlı olması, cinayət qanunvericiliyinin baxılan normalarının təbliğinin səviyyəsi və keyfiyyəti; hakimiyyət nümayəndələrinin peşəkar fəaliyyətinin keyfiyyəti, onun qanunilik və peşəkar mədəniyyət səviyyəsi, belə fəaliyyətin əhalinin nəzərində qiymətləndirilməsi; hakimiyyət və idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin vəziyyəti və səmərəliliyi.

**"Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinin profilaktikası məsələləri"** başlıqlı ikinci yarımfəslində bildirilir ki, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri törətmiş cinayətkarlar əhalinin digər kateqoriyalarından, o cümlədən digər cinayətlər törətmiş hüquq pozucularından nəzərəçarpacaq dərəcədə fərqlənirlər. Sözügedən cinayətlərin sayının çox olması və geniş yayılması ilə bağlı həmin cinayətləri törətmiş şəxslərin səciyyəvi davranışlarının və sosial-psixoloji xüsusiyyətlərinin öyrənilməsi mühüm nəzəri və təcrübi əhəmiyyət kəsb edir.

Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətlərinin xəbərdar edilməsi üzrə xüsusi tədbirlər qismində aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir: hakimiyyət nümayəndələrinin peşəkarlıq səviyyəsinin daim yüksəldilməsi, ekstremal vəziyyətlərdə onların qanun çərçivəsində qətiyyətli hərəkət etmək vərdişlərinin möhkəmləndirilməsi, kütləvi informasiya vasitələri ilə əlaqələrin gücləndirilməsi, hakimiyyət nümayəndələrinin əhalinin nəzərində nüfuzunun yüksəldilməsi.

Aparılmış tədqiqatın yekunu olaraq hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayəti ilə bağlı aşağıdakı əsas **nəticələri və təklifləri** müəyyən etdik:

1. Azərbaycanın həm Rusiya İmperiyasının tərkibində olduğu, həm Xalq Cümhuriyyəti dövrünün, həm də sovet dövrünün cinayət

qanunvericiliyində dövlət orqanlarının səlahiyyətli şəxsləri yüksək cinayət-hüquqi mühafizənin obyekti olmuşdur.

Azərbaycan Respublikasının cinayət qanunvericiliyi tarixində (1922, 1927, 1960, 1999) hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlinə görə cinayət məsuliyyətini müəyyən edən normaların daha dolğun məzmunu Azərbaycan SSR 1960-cı il Cinayət Məcəlləsində təsbit olunmuşdur.

2. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə dövlət aparatının normal fəaliyyətinə qəsd edən və şəxsiyyət üzərində zorakılıqla müşayiət edilən iki obyektli cinayətdir. Onun əsas bilavasitə obyektini hakimiyyət nümayəndələrinin normal idarəetmə fəaliyyətini təmin edən ictimai münasibətlər, əlavə bilavasitə obyektini hakimiyyət nümayəndəsinin və onun yaxın qohumlarının sağlamlığını, fiziki toxunulmazlığını, təhlükəsizliyini təmin edən ictimai münasibətlər təşkil edir.

3.Məcəllədə hakimiyyət nümayəndəsinin anlayışı verilməmişdir. Bu sahədə vahid təcrübənin yaradılması məqsədi ilə Cinayət Məcəlləsinin 315-ci maddəsinə qeyd şəklində hakimiyyət nümayəndəsinin aşağıdakı məzmunda anlayışınının daxil edilməsini təklif edirik:

"Bu maddədə və Məcəllənin başqa maddələrində hakimiyyət nümayəndəsi dedikdə, qanunvericilik, icra və məhkəmə hakimiyyətini həyata keçirən şəxslər, habelə dövlət və ya nəzarət orqanlarının yaxud yerli özünüidarə orqanlarının, onların tabeçiliyində olmayan vətəndaşlar və təşkilatlar üçün məcburi olan qanunla müəyyən edilmiş qaydada sərəncamverici səlahiyyətlər verilmiş şəxsləri başa düşülür.".

4.Məcəllənin 315-ci maddəsinin adlandırılmasında ("Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə") göstərilən hərəkətlərin birincisi qismən, ikincisi isə tam vurğulanır. Nəzərə alaraq ki, hər iki hərəkət zorakı xarakterlidir, təklif edirik ki, bu maddənin adından "müqavimət göstərmə və ya" sözləri çıxarılsın və həmin maddənin adı daha lakonik "Hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq etmə" kimi adlandırılsın.

5. Məcəllənin 315-ci maddəsi oxşar cinayət tərkiblərindən, əsasən, bu əlamətlərə görə fərqlənir: 1) xüsusi normanın ümumi

normaya münasibəti; 2) xüsusi normanın xüsusi normaya münasibəti; 3) hissənin tama nisbəti.

6. Hakimiyyət nümayəndəsinə qarşı fərdi və ümumi müqavimət göstərmə, adətən, kütləvi iğtişaşlar, qanunsuz toplantılar, mitinqlər, piketlər zamanı daha bariz surətdə özünü biruzə verir. Bu sahədə cinayət-hüquqi mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Məcəllənin 169.1 və 169.2-ci maddələrində nəzərdə tutulmuş sanksiyanın sərtləşdirilməsini təklif edirik.

7.Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanununun ilkin redaksiyasına münasibətdə 315-ci maddənin normativ məzmunu 2015 və 2020-ci illərdə ciddi şəkildə dəyişdirilmiş, 315-1 maddədə hakimiyyət nümayəndəsinə qarşı törədilən psixiki zorakılıq dekriminallaşdırılmış, "həyat və sağlamlıq üçün təhlükəli olmayan" cümləsi ləğv edilmiş, 315.2-ci maddə ləğv edilmiş və bununla qanunverici bu cinayətə görə cinayət məsuliyyətinin diferensiasiyasından imtina etmişdir.

8.Hesab edirik ki, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinə görə məsuliyyət daha yüksək səviyyədə diferensiallaşmalıdı və aşağıdakı ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı tərkibləri müəyyən edən maddələri 315-ci maddəyə əlavə etməyi təklif edirik:

"315.2. Eyni əməllər:

315.2.1. bir qrup şəxs və ya qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

315.2.2. təkrar törədildikdə —

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

315.3. Bu Məcəllənin 315.1 və 315.2-ci maddələri ilə nəzərdə tutulmuş əməllər silah və ya silah qismində istifadə edilən əşyalar tətbiq edilməklə törədildikdə —

yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

9. Bütün Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə ilə bağlı normalar öz

əksini tapmışdır. Postsovet respublikaların cinayət məcəllələri xeyli dərəcədə bir-birinə oxşardır.

10. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətlərinin ümumsosial profilaktikası çərçivəsində aşağıdakı tədbirlərin görülməsi zəruridir: işsizliyin azaldılması, dövlət büdcəsindən sosial sahəyə ayrılan xərclərin artırılması, vətəndaşların hüquqi şüur səviyyəsinin yüksəldilməsi, narkomaniya və alkoqolizmlə mübarizənin gücləndirilməsi, dövlət səviyyəsində hakimiyyət nümayəndələrinin nüfuzunun qorunmasına və yüksəldilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi.

11. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlini törətmiş cinayətkarın şəxsiyyətinin kriminoloji tipologiyasını həmin şəxsiyyətin fərqləndirici xüsusiyyətlərinin ifadəsi olan xarakteri, davranışı ilə bağlı olan əlamətlərinin məcmusu təşkil edir. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayəti törətmiş şəxslərin böyük əksəriyyətini kişilər təşkil edir.

12. Şəxsiyyəti səciyyələndirən sosial-demoqrafik göstəricilər arasında təhsil səviyyəsi mühüm ünsürlərdən biridir. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətlərinə görə məsuliyyətə cəlb edilərək məhkum edilmiş şəxslərin (araşdırdığımız cinayət işləri üzrə) böyük əksəriyyətinin təhsil səviyyəsi yüksək deyildir.

13.Şəxsiyyətin formalaşmasında həlledici olmasa da, əhəmiyyətli yerlərdən birini ailə vəziyyəti, ailə tərbiyəsi tutur. Araşdırdığımız cinayəti törədənlərin əksəriyyəti – 53,6%-i və ya 118 nəfəri ailəlidir. Ailəli və ya dul olanların demək olar ki, hamısının uşaqları vardır, həm də bu uşaqların əksəriyyətinin maddi və mənəvi köməyə ehtiyacları vardır.

14. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayəti törətmiş kontingentin xüsusi çəkisi ən böyük olan yaş qrupu 25-39 yaşında olanlardır ( 46,8% və ya 103 nəfər), onların 86,8%-in və ya 191 nəfərin birinci məhkumluğu olmuşdur. Cinayət işlərini araşdırğımız şəxslərin böyük hissəsi – 76,8% və ya 169 nəfər azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Cinayətlərin 64,9%-i və ya 141-i şəhərlərdə, 35,1%-i və

ya 79-u kənd yerlərində törədilmiş, bu cinayətlərin əksəriyyəti – 66,3%-i və ya 146-sı gündüz vaxtı, 33,7%-i və ya 74-ü gecə baş vermişdir. Aparılan tədqiqatlar göstərmişdir ki, cinayət törədənlərin əksəriyyəti işsiz olmuşdur (onların 85,9%-i və ya 189 nəfəri heç bir yerdə işləmir, heç bir yerdə oxumur və ya daimi qazanc mənbəyinə malik deyillər).

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. Cinayət Məcəlləsinin ümumi hissəsinin bəzi normalarının təkmilləşdirilməsi problemləri // Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti. Hüquq fakültəsinin 80 illik yubileyinə həsr olunmuş "Qloballaşan cəmiyyətdə hüquq elminin aktual problemləri" mövzusunda respublika elmi konfransının materialları (9 aprel 2008-ci il). - Bakı: Bakı Dövlət Universiteti, - 2008, s. 186-188;
2. К уголовно-правовому анализу оказания сопротивления или применение насилия представителю власти // - Москва: Журнал Кавказоведение, Институт Языкознания РАН, - 2010. №17, - с. 132-134;
3. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin obyektiv cəhəti haqqında // - Bakı: Bakı Universitetinin xəbərləri jurnalı: Sosial-siyasi elmlər seriyası, - 2011. № 4, - s. 67-75;
4. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin obyekti haqqında // 4-7 may 2011-ci il tarixdə Bakı Slavyan Universiteti ilə Gəncə Dövlət Universitetinin birgə keçirdiyi "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda II beynəlxalq elmi konfransın materialları, - Bakı: BSU, 2011, - s. 577-583;
5. Azərbaycan Respublikasında hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə haqqında cinayət qanunvericiliyinin inkişaf tarixi haqqında // - Bakı: Beynəlxalq hüquq və inteqrasiya problemləri jurnalı, - 2011. № 4 (28), - s. 188-197;
6. Azərbaycan Respublikasının hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə haqqında cinayət

qanunvericiliyinin təkmilləşdirilməsinin bəzi məsələləri // Bakı Avrasiya Universitetində keçirilmiş "Qloballaşma şəraitində hümanitar elmlərin aktual problemləri" mövzusunda respublika elmi-praktik konfransının materialları, - Bakı: - 15 mart, - 2011, s. 65-67;

7. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin subyektiv əlamətləri haqqında // - Bakı: AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Əsərləri, - 2011. № 2 (17), - s. 319-324;

8. Некоторые вопросы уголовному законодательству Азербайджанской Республики и Российской Федерации // - Днепропетровск: Журнал Право и суспильство, Днепропетровский Государственный Университет, - 2011. № 5, - с. 219-222;

9. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin oxşar cinayət tərkiblərindən fərqləndirilməsi // 13-14 dekabr 2012-ci il tarixdə Ombudsman aparatında keçirilmiş 10 dekabr Beynəlxalq İnsan Hüquqları gününə həsr edilmiş "Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, - Bakı: 2013, - s. 528-531;

10. Azərbaycanda hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinin kriminoloji xüsusiyyətləri və profilaktikası məsələləri // 1-4 may 2013-cü ildə AMEA-da keçirilmiş Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda IV beynəlxalq elmi-praktik konfransın materialları, - Bakı: AMEA, 2013, - s. 260-262;

11. Azərbaycan və MDB ölkələrinin cinayət qanunvericiliyi üzrə hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə cinayətinə görə məsuliyyətin tənzimlənməsi məsələləri // 5-7 may 2014-cü ildə AMEA-da keçirilmiş Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda V beynəlxalq elmi-praktik konfransın materialları, Bakı: AMEA, 2014, - s. 323-326;

12. Azərbaycan və xarici ölkələrin cinayət qanunvericiliyi üzrə hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə cinayətinə görə məsuliyyətin tənzimlənməsi məsələləri //

5-7 may 2015-cü ildə Bakı Slavyan Universitetində keçirilmiş Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda VI beynəlxalq elmi-praktik konfransın materialları. - Bakı: BSU, 2015. - s. 38-39;

13. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətinin profilaktiki məsələləri // 3-5 may 2016-cı il tarixdə Bakı Slavyan Universitetində keçirilmiş Ulu öndərin anadan olmasına həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" mövzusunda beynəlxalq elmi-praktik konfransın materilları, Bakı: BSU, 2016. - s. 31-34;

14. Azərbaycan SSR-in 8 dekabr 1960-cı il tarixli Cinayət Məcəlləsində idarəçilik qaydaları əleyhinə olan cinayətlər // - Bakı: Qanun jurnalı, - 2017. № 10 (276). - s. 97-99;

15. Azərbaycan Respublikasında 2012-2016-cı illərdə törədilmiş dövlət hakimiyyəti əleyhinə olan cinayətlər // - Bakı: Qanun jurnalı. - 2018. № 1 (279). - 84-88;

16. 1845-ci il tarixli cinayət və islah cəzaları Qanunnaməsində idarəçilik qaydaları əleyhinə olan cinayətlər // 2018-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetində keçirilmiş Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş "Milli-mənəvi dəyərlər: ənənə və müasirlik" mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı, 2018. - s. 340-344;

17. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemləri / - Bakı: Bakı Universiteti nəşriyyatı, - 2018. - 168 s.;

18. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməlləri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemlərinin tədqiqinin əhəmiyyəti // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "İnsan inkişafı. Dünyaya inteqrasiya" mövzusunda beynəlxalq elmi konfransın materialları. - Bakı: Azərbaycan Memarlıq və İnşaat Universiteti, 2019. - s. 353-358;

19. Regulation of liability for the crime of resisting or using force against a government official under legislation of the United

States of America // Сборник статей международной научно-практической конференции "Инновационные подходы в современной науке", - Москва: 20 августа, - 2021, - p. 74-77;

20. Postsovet ölkələrinin cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə əməllərinə görə məsuliyyətin tənzimlənməsi // Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, №4, 2021. - s.46-52;

21. Roman-German və Anqlo-Sakson hüquq sistemlərinə daxil olan ölkələrin qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə ya zor tətbiq etmə cinayəti ilə bağlı normalar // Qanun. Elmi hüquq jurnalı, № 12 (348), 2023. – s.51-59;

22. Azərbaycan Respublikasında 2012-2023-cü illərdə törədilmiş dövlət hakimiyyəti əleyhinə olan cinayətlərin kriminoloji tədqiqinin aktual problemləri // Qanun. Elmi hüquq jurnalı, № 08 (358), 2024. – s.120-126.

Dissertasiyanın müdafiəsi 18 ____02____ 2025-ci il tarixində saat 11 : 00 -da Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Mərdəkan pr. 30.

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 17 ____01.____ 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.01.2025
Kağızın formatı: A5
Həcm: 40312
Tiraj: 100